# Fərqlənənlərə mükafat verildi

Xaçmazda keçirilən tədbirlər bir qayda olaraq həmişə öz dolğunluğu ilə fərqlənir. Bu günlərdə Rayon Mədəniyyət və Turizm Şöbəsində xüsusi bir qələbəlik var idi. Tədbiri giriş sözü ilə şöbə müdiri Nazim Ağayev açdı, görüş iştirakçılarını salamladı və festivalda fərqlənənləri - Könül Əsgərova, Zeydulla Ağayev, Gülnarə Qafarova, İlhamə Əmirova, Zöhrab Məmmədov və Ədalət Pirverdiyevi Fəxri Fərman və pul, 22 nəfəri isə pul mükafatı ilə qiymətləndirdi.

Tədbirdən sonra N.Ağayev müxbirimizə aşağıdakıları söylədi:

- Məlumunuz olduğu kimi nazirliyimizin təşkil etdiyi I Ümumrespublika Dekorativ Tətbiqi Sənət Festivalı çərçivəsində regional mərkəzlərdə - Gəncə, Naxçıvan, Lənkəran və Şəkidə, o cümlədən Xaçmazda sərgilər keçirilmişdir. Rayonumuzdakı sərgidə Qusar, Quba, Dəvəçi, Siyəzən, Qobustan, Şamaxı, Hacıqabul, Xızı və Xaçmazın 100-dən artıq sənət adamının əl işlərindən ibarət 500-dək xalçaçılıq, bədii tikmə, toxuculuq, oyma, döymə, zərgərlik və dulusçuluq nümunələri nümayiş etdirilmişdir.

Qalib adını qazanmaq və mükafatlandırılmaq üçün onların ən yaxşıları seçilmişdir. Fərəhlə qeyd etmək istəyirəm ki, bəyənilmiş 100-dək əsərdən az qala yarısı xaçmazlılara məxsusdur. Onlar əsil qiymətini bundan sonra alacaq. Biz isə şöbə olaraq onları bəri başdan dəyərləndirməyi məqsədəuyğun bildik...

● E.ƏLYAROVA

